Tim Steiner adlı İsveçrə vətəndaşı belində məşhur bir rəssam tərəfindən çəkilən döyməsini alman sənət kolleksioneri Rik Reinkingə 150 min avroya satıb.

“ Qafqazinfo ”nun “Posta”ya istinadən verdiyi məlumata görə, əvvəllər tatuaj salonu olan 40 yaşlı Steiner ildə 3 dəfə sənət qalereyasında belini nümayiş etdirir.

O, döyməsini sərgiləyərkən tərpənmədiyini və danışmadığını, buna görə insanların onu heykəl zənn etdiklərini söyləyib: “Mənim insan olduğumu biləndə çox təəccüblənirlər”.

Qeyd edək ki, Steiner öləndən sonra onun kürək dərisi soyularaq çərçivəyə salınacaq.